# Azadlıq və toxunulmazlıq hüququ

Ali Məhkəmənin İnsan hüquqları və ictimaiyyətlə
əlaqələr şöbəsinin məsləhətçisi Süleyman Aslanov

Konvensiyaya əsasən hər kəsin azadlıq və toxunulmazlıq hüququ var və bu hüquq hər hansı əsasa görə ayrı seçkilik olmadan təmin edilir. 5-ci maddənin başlıca məqsədi fərdin fiziki azadlığını qanunsuz həbslərdən qorumaqdan ibarətdir.

AİHM qeyd edir ki, azadlıq və toxunulmazlıq hüquqi demokratik cəmiyyətdə ən zəruri elementlərdən biridir. Hətta, şəxs özü könüllü olaraq həbsxanaya salınmaq üçün müraciət etsə belə, bu hüququn qorunmasının ona verdiyi imtiyazı itirə bilməz. Belə ki, azadlıq və toxunulmazlıq hüququ ilə bağlı 5-ci maddə təkcə həbs anında şəxsin müdafiəsini təmin etmir, həm də həbsdən sonra həmin şəxs azadlığa buraxılana qədər və ya məhkəmə tərəfindən azadlıqdan məhrum edilmə cəzasına məhkum edilənə qədər onun müdafiəsini müntəzəm qaydada təmin edir.

5-ci maddənin birinci cümləsindən aydın olur ki, azadlıq və toxunulmazlıq hüququ bir mənalı olaraq hər kəs üçün təmin olunmalıdır. Daha sonra maddədə qeyd olunur ki, həbs qanunla müəyyən olunmalı və yalnız sözügedən maddənin 1-ci bəndin (a-f) yarımbəndlərində nəzərdə tutulmuş hallarda həyata keçirməlidir. Həbsin səbəbləri kimi göstərilən hallar tamdır və hər hansı başqa səbəbə görə həbs 5-ci maddə üzrə qanuni deyildir. Bundan başqa, şəxsin azadlıqdan məhrum edilməsi qanunla müəyyən olunmuş qaydada və 1-ci maddənin (a-f) yarımbəndlərində nəzərdə tutulmuş hallar əsasında həyata keçirilmirsə, bu zaman həbs əsassız və qanunsuzdur. 5-ci maddəyə zidd olan hallarda insanları həbsdə saxlayan dövlət orqanları onları dərhal buraxmaq öhdəliyi daşıyırlar.

***QEYD:*** Konvensiyanın 15-ci maddəsinə əsasən, millətin həyatını təhdid edən fövqəladə hallar zamanı, müəyyən prosedurlara riayət etmək şərti ilə, azadlıq və toxunulmazlıq hüququndan geri çəkilməyə yol verilir.

Azadlıq və toxunulmazlıq hüququ mütləq hüquq deyil, lakin bununla belə, Konvensiyanın 5-ci maddəsində prezumpsiya azadlığın xeyrinədir. 5-ci maddəyə əsasən, bütün azadlıqdan məhrum edilmə halları q*anunla müəyyən olunmuş qaydada* həyata keçirilməli və *qanuni* olmalıdır. Bu ifadələr dövlətdaxili hüquqa istinad edildiyini bildirir və müvafiq dövlətdaxili hüququn keyfiyyətinə də aid

edilir. Belə ki, həbsə icazə verən hüquq normaları qanunun aliliyinə uyğun olmalı, hər cür qanunsuzluq riskindən yaxa qurtarmaq üçün kifayət qədər çatımlı və dəqiq olmalı və onların nəticələrini öncədən görmək mümkün olmalıdır.

***Məsələn:*** Vorbanov Bolqarıstana qarşı işində prokurorun sərancamı əsasında ərizəçi məcburi qaydada 25 günlüyünə psixiatriya xəstəxanasına salınmışdı. Məhkəmə dövlətdaxili hüquqda bəzi çatışmazlıqların olduğunu qeyd etdi. Məhkəmə bildirdi ki, qanunvericilikdə dövlət prokuroru tərəfindən qəbul edilmiş göstərişlərə qarşı hüquqi müdafiə vasitəsi mövcud deyildir. Daha sonra məhkəmə əlavə etdi ki, qanunla müəyyən olunmuş hallarda və qanunla müəyyən olunmuş qaydada ifadələri tələb edir ki, şübhə altına alınan tədbirin dövlətdaxili qanunvericilikdə əsası olmalıdır, eləcə də həmin ifadələr sözügedən qanunvericiliyin keyfiyyətli olmasını tələb edir: habelə tələb edir ki, həmin qanunvericilik müvafiq şəxs üçün çatımlı olmalı və müvafiq hüquq normalarının nəticələrini öncədən görmək mümkün olmaldır.

Belə bir nəticə hasil olur ki, həbs dövlətdaxili hüquqa və Konvensiyanın 5-ci maddəsində nəzərdə tutulmuş tələblərə zidd şəkildə həyata keçirilirsə, yaxud dövlətdaxili hüquq normaları çatımlı və aydın deyilsə və onların nəticələrini öncədən görmək mümkün deyilsə, o halda istənilən həbs 5-ci maddənin tələblərinə zidd olacaqdır. Yəni, dövlət daxili hüquq normaları Konvensiyanın 5-ci maddəsindən irəli gələn tələblərə uyğun olmalıdır, əks halda Konvensiyanın sözügedən maddəsinin pozuntusu baş verəcəkdir.

Avropa İnsan Hüquqları Məhkəməsi azadlıq və toxunulmazlıq hüququnun məhdudlaşdırılması halları ilə bağlı aşağıdakı əsas **prinsipləri** müəyyən etmişdir. Bu prinsiplər azadlıq və toxunulmazlıq hüququnun məhdudlaşdırılması zamanı rəhbər tutulmalıdır.

- *həbsin qanuna əsaslanması prinsipi;*

- *hüquqi müəyyənlik prinsipi;*

- *özbaşınalıqdan müdafiə prinsipi.*

*Qanunçuluq prinsipi Avropa Məhkəməsinin mövqeyinə görə şəxsin tutulmasının və həbsə alınmasının milli qanunvericiliyin normalarına riayət olunmaqla həyata keçirilməsini ehtiva edir.

*Hüquqi müəyyənlik prinsipi azadlıq və toxunulmazlıq hüququnun məhdudlaşdırılması şərtlərinin milli qanunvericilikdə aydın və dəqiq təsbitini, hüquq tətbiq etmə praktikasının qanunun eyni cür və dürüst təfsirinə əsaslanmasını, müxtəlif məhkəmə qərarlarında hüququn tətbiqi məsələlərində ardıcıllığın

gözlənilməsini, bir sözlə qanunun tətbiqi təcrübəsinin şəxslər üçün gözlənilən olmasını nəzərdə tutur. Avropa Məhkəməsinə görə, şəxsin ona qarşı ittihamın irəli sürülməsi ilə əlaqədar qanunda göstərilməyən və yaxud hüquq tətbiqetmə təcrübəsində nəzərdə tutulmayan əsasla həbsə alınması hüquqi müəyyənlik prinsipinə uyğun olmamaqla Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin pozuntusunu yaradır.

*Özbaşınalığın istisna edilməsi prinsipi də əvvəlki iki prinsiplə sıx bağlı olmaqla, şəxsin həbs edilməsinin qanuna əsaslanmasını və həbsdə saxlanılmanın müvafiq qərarla əhatə olunmasını ehtiva edir və "özbaşınalıqdan müdafiə" aspektində həbsin qanuna əsaslanması dedikdə, yalnız milli hüquq normaları deyil, həm də Avropa Məhkəməsinin müəyyən etdiyi standartlar nəzərdə tutulur.

### 5.2. *Tutulmuş hər bir kəsə ona aydın olan dildə onun tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənilən ittiham barədə dərhal məlumat verilir.*

Konvensiyanın 5-ci maddəsinin 2-ci bəndinə əsasən tutulmanın səbəbləri barədə dərhal məlumat vermək öhdəliyi təkcə şəxsin cinayət ittihamları ilə bağlı həbsə alındığı hallara yox, 5-ci maddənin 1-ci bəndində nəzərdə tutulan bütün səbəblərə görə həbsə alındığı hallara şamil olunur. Burada tutulma sözü müstəqil mənaya malikdir və cinayət hüquqi tədbirlər sahəsindən kənara çıxır. Belə ki, burada tutulma sözü şəxsin azadlığını itirdiyi anı bildirir. 5-ci maddənin 2-ci bəndi elementar təminat təqdim edir ki, həbs edilən hər kəs həbsinin qanuniliyi məsələsi barədə mümkün qədər tez şikayət etmək üçün addımlar ata bilsin.

5-ci maddənin 2-ci bəndindəki tutulan şəxsə aydın olan dil ifadəsinə gəldikdə, burada təkcə dil anlayışından söhbət getmir, yəni, şəxsin anladığı dil nəzərdə tutulmur. Aydın olan dil dedikdə, şəxsin anladığı dil ilə yanaşı, məlumatın sadə olması, şəxsin tutulmasının və ya həbsinin hüquqi və texniki səbəbləri barədə təfsilatlar qeyri-texniki terminlərlə çatdırılması nəzərdə tutulur. Bununla da şəxsin öz istəyi əsasında həbsin qanuniliyi məsələsindən şikayət edə bilməsinə nail olunacaqdır. Avropa Məhkəməsi qeyd edir ki, anlaşılmaz hüquqi jarqonlardan istifadə 5-ci maddənin 2-ci bəndi baxımından qaneedici hesab olunmur. Təqdim olunan məlumatda tutulmanın səbəblərini sözbəsöz çatdırmağa və ya həbsin səbəbləri barədə məlumatın yazılı versiyalarını təqdim etməyə ehtiyac yoxdur, bu şərtlə ki, şəxsə təqdim olunan məlumat yuxarıda qeyd olunan məqsədlər üçün kifayət etsin. Şifahi və ya yazılı tərcüməyə gəldikdə, məlumatın həbs edilən şəxsin ana dilində çatdırılması vacib deyil, lakin şəxs tərcümə sayəsində həbsin səbəbləri barədə kifayət qədər başa düşülən məlumat əldə edə bilməlidir ki, həbsdən şikayət edə bilsin. Qeyd edildiyi kimi, çatdırılan məlumat həbsin qanuniliyi məsələsindən

şikayət edə bilmək baxımından səmərəli şəkildə ifadə edilibsə və həbsin səbəblərini məhbusun kifayət qədər başa düşməsinə imkan verirsə, məlumatın yazılı çatdırılmasına, habelə məlumat vermək üçün hər hansı xüsusi tədbirin görülməsinə ehtiyac yoxdur.

**Dərhal** məlumat vermə tələbi şəxsin tutulduğu anda həbsin səbəbləri barədə ona məlumat verilməsini bildirmir, o, konkret halları nəzərə almaqla çevik məlumat vermək tələbini bildirir. Məsələn: Konka Belçikaya qarşı işində qaraçı mənşəlli bir sıra digər şəxslərlə yanaşı Belçikada sığınacaq axtaran ərizəçilər polis bölməsinə dəvət edilmişdi. Oraya gələnə kimi onlara deportasiya və həbs barədə qərar təqdim edilmiş və tərcümə təmin edilmişdir. Məhkəmə qərara aldı ki, bu hal 5-ci maddənin 2-ci bəndinə uyğundur. Lakin fərdlərin terrorçu olması barədə iddialarla bağlı aparılan araşdırmalara aid işlərdə Məhkəmə qərara aldı ki, ittihamın ümumi xarakteri barədə qabaqcadan məlumat verilməsi kifayətdir, daha ətraflı təfsilatlar isə sonradan – məsələn dindirilmənin gedişində çatdırıla bilər.

Belə ki, terrorizmə aid işlərə fövqəladə işlər kimi yanaşmaq lazımdır. Adi cinayətlərin və ya ruhi xəstəlilə və s. ilə bağlı cinayətlərin yer aldığı işlərdə tutulan və həbs edilən şəxslərə dərhal ya da praktiki cəhətdən mümkün olan ən qısa müddətdə onların başa düşdüyü dildə tutulmanın və ya həbsin səbəbləri barədə məlumat verilməlidir.

Təcrübədə problem doğuran məsələlərdən biri də şəxs həbs edilərkən ona yalnız hansı maddə əsasında həbs edilməsi barədə məlumat verilməsidir. Avropa Məhkəməsinin bu məsələ ilə bağlı qeyd edir ki, şəxsə yalnız müvafiq qanunvericiliyin hansı maddəsi əsasında həbs olunması ilə bağlı məlumat verilməsi 5-ci maddənin 2-ci bəndində qeyd olunmuş məqsədlərə uyğun deyil və bu bəndin tələblərinə ziddir. Şəxsə həbsi barədə ətraflı məlumat, yəni, müvafiq qanunvericiliklə yanaşı həbsin əsasları(işin halları) barədə informasiya verilməlidir. Bu vasitə ilə şəxsin həbsin səbəbləri barədə məlumat əldə etməsinə şərait yaranacaq və nəticə etibari **ilə şəxsin həbsin qanuniliyi məsələsindən şikayət edə bilməsinə nail olunacaqdır** ki, bu da 5-ci maddənin 2-ci bəndinin məqsədlərinə xidmət edəcəkdir.

**5.3.** ***Bu maddənin 1–ci bəndinin c yarımbəndinə müvafiq olaraq tutulmuş və ya həbsə alınmış hər kəs dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş digər vəzifəli şəxsin yanına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək məhkəməyə gəlmə təminatlarının təqdim edilməsi ilə şərtləndirilə bilər.***

Konvensiyanın 5-ci maddəsinin 3-cü bəndindən belə anlaşılır ki, səlahiyyətli dövlət orqanları iki seçim qarşısında qalırlar: ya ağlabatan müddət ərzində məhkəmə araşdırması keçirmək ya da şəxsi azad etmək. Bu bəndin məqsədi şəxsi ibtidai həbsdə *(həbs qətimkan tədbiri)* ağlabatan müddətdən artıq vaxt ərzində qalmamasını təmin etməkdir. Bu bənd şəxsin fiziki azadlıq hüququna təminat verir.

Bu norma 5-ci maddənin 1(c) bəndinə əsasən cinayət prosesi ilə bağlı həbs edilmiş şəxslərə xüsusi təminat verir, yəni onların qanunsuz həbsə alınmamasını və ibtidai həbs müddətinin minimuma endirilməsini təmin etmək məqsədi ilə onlar üçün avtomatik məhkəmə prosedura nəzərdə tutur.

**5.1(c)**

5-ci maddənin 1(c) bəndindəki tutulma sözünün mənası həmin sözə dövlətdaxili hüquqda verilən məna ilə üst-üstə düşməyə də bilər. Sözün Konvensiyadakı mənası dövlətdaxili hüquqdakı mənası ilə müqayisədə üstün tutulmalıdır. Bu səbəbdən də tutulma sözünün mənasının dövlət orqanları tərəfindən də 5-ci maddənin 1(c) bənində nəzərdə tutulan mənada başa düşülməsi vacibdir. 5-ci maddənin 1(c) bəndinin məqsədləri baxımından tutulma cinayət törətməkdə şübhəli bilinən şəxsin həbsi istiqamətində ilkin hərəkətdir.

Sözügedən bənddə nəzərdə tutulan şübhənin dərəcəsi əsaslı şübhə dərəcəsində olmalıdır və əsaslı şübhə Konvensiyada nəzərdə tutulan məna baxımından başa düşülməlidir. Bu məsələ ilə bağlı Avropa Məhkəməsi qeyd edir ki, cinayət törətmək niyyəti ilə bağlı şəxsin həbs edilməsi 5-ci maddənin 1(c) bəndində nəzərdə tutulan məqsədə uyğun deyil və həmin bəndin pozuntusudur.

Əsaslı şübhə aradan qaldırıldıqda, şəxsi həbs etmiş dövlət orqanları onu azadlığa buraxmağa borcludurlar. Bunun səbəbi odur ki, 5-ci maddənin 1(c) bəndi üzrə həbsin əsasını əsaslı şübhə təşkil edir və həbsin əsasını təşkil edən həmin əsaslı şübhə aradan qalxdığı anda həbsin öncə qanuni olan əsası öz qanuniliyini itirir. Şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısına çıxarılmasından azadlığa

buraxılması faktı heç də tutulmanın və ya həbsin əsassız olduğu demək deyildir. Fərz etsək ki, şəxs 5-ci maddənin 1(c) bəndinə uyğun tərzdə həbs edilib və vaxtında azadlığa buraxılıb, bu halda o, həbsinə qarşı 5-ci maddə üzrə şikayət verərkən uğur qazana bilməyəcəkdir.

Qeyd etməliyəm ki, AİHM azadlıq və toxunulmazlıq hüququnun məhdudlaşdırılması ilə bağlı **2 əsas meyar** müəyyən etmişdir: ( bunlardan biri də “əsaslı şübhədir”)

-“Əsaslı şübhə” meyarı;

-“Müvafiq və yetərli əsaslar” meyarı.

“Əsaslı şübhə” dedikdə, həbs olunan şəxsin cinayət əməlini törədə bilmiş olduğuna obyektiv müşahidəçini qane edəcək faktların və ya məlumatların mövcudluğu başa düşülür. Dövlətdaxili hüquqda əsaslı şübhənin mənası Avropa Məhkəməsinin tələbinə cavab vermirsə, həmin şübhədən irəli gələn həbs qətimkan tədbiri 5-ci maddəyə zidd olacaqdır. Əsaslı şübhə müvafiq şəxsin cinayət törətməsi ilə bağlı qaneedici fakt və məlumatların mövcudluğunu nəzərdə tutur. Hansı şübhənin əsaslı olması müəyyən dərəcədə işin hallarında asılıdır. Forex: terror cinayətləri ilə əlaqədar olaraq şəxsin tutulmasına haqq qazandıran şübhənin əsaslılığı məsələsində heç də həmişə adi cinayət zamanı tətbiq edilən standartlarla eyni əsasda mülahizə yürütmək olmaz. Avropa Məhkəməsi bildirir ki, ilkin mərhələlərdə yerli məhkəmələr təqsirləndirilən şəxsin sözügedən cinayəti törətməsinə dair əsaslı şübhəyə əsaslana bilərlər ki, həbsin qanuni olması üçün bu zəruri elementdir. Lakin müəyyən vaxt keçdikdən sonra əsaslı şübhə həbsin davam etməsinə haqq qazandırmaq üçün kifayət deyildir.

Məhkəmə bir daha bildirir ki, 5-ci maddənin 1(c) bəndi əsasında əsaslı şübhəyə görə tutma zamanı polisin tutma anında və ya şikayətçi həbsdə saxlanılarkən ittihamlar irəli sürmək üçün yetərli sübutlara malik olması vacib deyil. Dindirmə üçün həbsə almanın məqsədi həbs üçün əsas təşkil edən şübhələri təsdiq etmək və ya aradan qaldırmaqla cinayət araşdırmasını irəliyə aparmaqdir. Buna görə də, şübhə doğuran faktların cinayət araşdırması prosesinin növbəti mərhələsində baş verəcək məhkum edilmə üçün, yaxud hətta ittiham irəli sürmək üçün zəruri olan faktlarla eyni səviyyədə olması vacib deyil. Lakin şübhənin əsaslı olması barədə tələb əsassız tutulmaya və həbsə alınmaya qarşı təminatın mühüm hissəsini təşkil edir. Şübhənin vicdanlı (daxili inama əsaslanan) şübhə olması faktı yetərli deyil. "Əsaslı şübhə" sözləri müvafiq şəxsin cinayət törədə biləcəyinə obyektiv müşahidəçini inandıra bilən faktların və ya məlumatların mövcudluğunu bildirir.

Avropa Məhkəməsi xüsusilə vurğulamışdır ki, həbs qətimkan tədbirinin seçilməsini şərtləndirən "əsaslı şübhənin" mövcudluğu, o cümlədən cinayətin ağırlığı və cinayətə görə qanunda nəzərdə tutulmuş cəzanın ciddiliyi, müəyyən müddət keçdikdən sonra artıq həbsin davam etməsinə kifayət etmirlər və məhkəmələrin vəzifəsidir ki, şəxsin həbsdən azad edilməsindən imtina etdikdə həbsin davam etməsinə zərurətin olduğunu göstərən digər "müvafiq" və "yetərli" halları müəyyən etsinlər.

**"Müvafiq və yetərli əsaslar"** meyarına həbsin zəruriliyini göstərən aşağıdakı ehtimallar aid edilr:

- təqsirləndirilən şəxsin məhkəməyə gəlməmə riski; 155.1, 155.4

- təqsirləndirilən şəxsin azad olunacağı təqdirdə ədalət mühakiməsinin həyata keçirilməsinə maneə törədəcəyi riski; 155.2, 155.5

- digər cinayət əməllərini törədəcəyi riski; 155.3

- ictimai qaydanı pozması riski.

Bununla bağlı Avropa Məhkəməsinin mövqeyi ondan ibarətdir ki, məhkəməyə qədərki mərhələdə həbsdə saxlanmanın davam etdirilməsinə haqq qazandıran müvafiq və yetərli əsaslar yoxdursa, cinayət əməlinə görə ittiham olunan şəxs həmişə azad edilməlidir.

İbtidai həbsə haqq qazandırmaq məqsədi ilə istifadə edilən əsaslara gəldikdə, Məhkəmə qeyd edir ki, həbsin nə ilə əsaslandırılmasından asılı olmayaraq, məhkəmələr prosesin həyata keçirilməsində xüsusi cəldlik nümayiş etdirməldirlər ki, həbsdə keçirilən müddət ağlabatan hesab oluna bilən müddət həddini aşmasın. Hansı müddətin ağlabatan olması isə işdən-işə fərqlidir və eyni qiymətləndirilə bilməz. Şəxsin həbsə alınması və ya həbsin davam etdirilməsi barədə qərar qəbul edərkən nəzərə alınmalı olan tələblər:

-işin istintaqının mürəkkəbliyi,
- iş üzrə təqsirlənidirilən şəxslərin sayı,
- əməldə beynəlxalq cinayət elementlərinin olub-olmaması,
- hüquqi məsələlərin xarakteri və mürəkkəbliyi,
- təqsirləndirilən şəxsin davranışı.

Avropa Məhkəməsi qeyd edir ki, hər hansı işdə uzunmüddətli həbsə yalnız o halda haqq qazandırmaq olar ki, təqsirsizlik prezumpsiyasına baxmayaraq, azadlıq hüququndan üstün tutula bilən ictimai marağın mövcudluğunu göstərən aydın

əlamətlər olsun. Bundan başqa uzunmüddətli həbsə haqq qazandıran əsaslar məqsədəuyğun və yetərli olmalı və 5-ci maddənin 3-cü bəndinə zidd olmayaraq işin uzanmayacağını təsdiq etməlidir. Müvafiq olaraq, əgər uzunmüddətli həbs üçün tutarlı əsaslar yoxdursa, iş üzrə ehtimal həmişə şəxsin azadlığa buraxılmasının xeyrinə olmalıdır. AİHM Nyumayster Avstriyaya qarşı işində qeyd edir ki, 5-ci maddənin 3-cü bəndinə uyğun olaraq təqsirləndirilən şəxsin həbsdə saxlanması müəyyən vaxt keçdikdən sonra öz əsaslılığını itirirsə, o, azad edilməlidir. Şəxsin ədalətli məhkəmə araşdırması hüququna malik olması məsələsi 6-cımaddə üzrə araşdırılmalıdır. Avropa Məhkəməsi bu məsələ ilə bağlı yenidən qeyd edir ki, həbsin əsaslılığı hər bir işin xüsusiyyətləri nəzərə alınmaqla qiymətləndirilməlidir. Dövlətdaxili məhkəmələr öz qərarlarında azadlığa buraxılmanı rədd edən konkret halları təsdiqləyən faktlara və məlumatlara əsaslanmalıdırlar, onlar öz qərarlarında stereotip mülahizələrə əsaslana bilməzlər və məhkəmələr tərəfindən göstərilən zaman keçdikcə dəyişə bilən əsasların prosesin sonrakı mərhələlərində öz qüvvəsini saxlayıb-saxlamadığı yoxlanılmalıdır.

5-ci maddənin 3-cü bəndi ilə bağlı sual doğuran məsələlərdən biri də normanın məzmunun da qeyd edilən *dərhal gətirilmə* məsələsidir. Avropa Məhkəməsi bu məsələdə maksimum vaxt hədlərini göstərməkdən çəkinmişdir və qeyd etmişdir ki, *dərhal* ifadəsi altında nəzərdə tutulan müddət məhdud olsa da, işdən-işə fərqlənir. Bu zaman hər bir işin fərdi xüsusiyyətləri nəzərə alınmalıdır. **Qeyd**: *Dərhal anlayışı hakimlərin həftəsonu, istirahət günlərində və ya gecə yarısı, yaxud da bayram günlərində iclas keçirməsini tələb edə bilər.* Səlahiyyətli orqanlar iş üzrə araşdırmanı lazımı cəldliklə həyata keçirmədikdə və məhbusu ağlabatan müddət ərzində məhkəmə qarşısına çıxarmadıqda, 5-ci maddənin 3-cü bəndi pozulmuş hesab olunur. Şikayətin tez həll edilməsi tələbinin məntiqi əsası ondan ibarətdir ki, əgər həbs həqiqətən qanunsuzdursa, bu zaman məhbus dərhal azad ediləcəkdir. Bununla da şəxsin Konvensiyanın 5-ci maddəsində nəzərdə tutulmuş azadlıq və toxunulmazlıq hüququna müdaxilə bitəcək və pozulmuş hüquqları tez bir zamanda bərpa ediləcəkdir.

*Məhkəməyə gəlməyə dair təminat müqabilində azad edilmək hüquq:* Heç bir şərt qoyulmadan azadlığa buraxılma həddən artıq riskli olduğu hallarda məhkəməyə gəlməyə dair təminatlar həmişə ibtidai həbsə alternativ qismində tətbiq edilməlidir. Həqiqətən də, 5-ci maddənin 3-cü bəndində nəzərdə tutulur ki, azad edilmək məhkəməyə gəlmə təminatlarının təqdim edilməsi ilə şərtləndirilə bilər. Həmin təminatlar qarşıya qoyulan məqsədə mütənasib olmalıdır: müəyyən şərtlə azad edilmə haqqında qərarın qəbulu məqəsədəuyğun sayıldıqda, qoyulan şərtlər elə olmalıdır ki, onları yerinə yetirmək real olsun(məsələn, girov şəxsin gizlənməsinə qarşı çəkindirici vasitə rolunu oynaya biləcək dərəcədə müəyyən

edilməlidir), eləcə də həmin şərtlər girovun məqsədini (yəni şəxsin azadlığa buraxılmasını) mənasız edən dərəcədə ağır olmamalıdır. Girovun şərtləri ilk növbədə məhkəməyə gəlmə məqsədinə xidmət etməlidir, onlar cəza və kompensasiya məqsədi daşımamalıdır. Nyumaster Avstriyaya qarşı işində yerli məhkəmələr təminat kimi təqsirləndirilən şəxs tərəfindən törədildiyi iddia edilən cinayətlər nəticəsində dəymiş ziyanın məbləğinə əsaslandırılmışdır. Avropa Məhkəməsi bu işdə qərara aldı ki, təminatların məqsədi ziyanın kompensasiyasını yox, şəxsin məhkəmə iclasında iştirakını təmin etməkdir. Girovun məbləği təqsirləndirilən şəxsin əmlak vəziyyətinə və zəmanət verən şəxslərlə onun münasibətlərinə əsasən qiymətləndirilməlidir.

*Avtomatik nəzarət:* Avropa Məhkəməsi bildirir ki, şəxsin məhkəmə gününə qədər həbsdə qalması məsələsi yoxlanmağa ehtiyacı olan məsələdir. 5-ci maddənin 3-cü bəndi həbs anından çox keçmədən həbsin səbəblərinin dərhal araşdırılmasını tələb edir, eləcə də, o, həmin səbəblərə müntəzəm vaxt intervalları ilə avtomatik nəzarətin olmasını tələb edir. Lakin Məhkəmə həmin avtomatik nəzarətin hansı zaman intervalları ilə həyata keçirilməsi məsələsinə tam aydınlıq gətirməmişdir və qeyd etmişdir ki, burada işin xüsusiyyətləri nəzərə alınmaqla avtomatik nəzarət həyata keçirilməlidir. Sözügedən hüquq fərdin özünün təşəbbüs göstərib-göstərməməsindən asılı deyil. Bu öhdəliyə görə dövlət cavabdehlik daşıyır. Həbsin qanuniliyi yoxlanılarkən həbsə haqq qazandırmaq üçün kifayət qədər əsasların olduğunu sübut etmək vəzifəsi dövlət orqanlarının üzərinə düşür, əks halda, məhbus girov müqabilində azad olunmalıdır.

5-ci maddənin mətni boyunca həbs məsələsindən daha çox azadlıq məsələsi vurğulanır. Müvafiq olaraq, şəxsin həbsinin səbəbləri müntəzəm qaydada yoxlanılmadan o, bütün ibtidai həbs müddətində həbsdə saxlanıla bilməz. Başqa sözlə həbsdə saxlanmanın zəruriliyi məsələsini daim nəzarət altında saxlamaq lazımdır.

Bu bənd üzrə öhdəliklərin məqsədi məhkəməyə qədər tutulma və həbsdən sonra məsələyə dərhal baxılmasını təmin etməkdən, habelə məhkəməyə qədərki dövrdə həbsin qanuniliyinin müntəzəm qaydada yoxlanmasını təmin etməkdir.

**5.4.** ***Tutulma və ya həbsə alınma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanuniliyə məhkəmə tərəfindən təxirə salınmadan baxılması hüququna və əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmək hüququna malikdir.***

5-ci maddə üzrə həbsə alınan bütün şəxslər cinayətlər törətməyə, ruhi xəstəliyə və ya məhkəmənin qanuni çıxardığı qərarları yerinə yetirməməyə və digər səbəblərə görə həbs edilmələrindən asılı olmayaraq, həbsin qanuniliyi məsələsindən məhkəməyə şikayət etmək hüququna malikdirlər. Həbs barədə qərara məhkəmənin yenidən baxması tələbi qanunsuz həbsə qarşı ən vacib prosessual təminatlardan biridir. Praktikada cinayət ittihamları əsasında həbs olunan şəxslərin çoxu həbsdə saxlanmalarının qanuniliyi məsələsindən şikayət etmək üçün 5-ci maddənin 3-cü bəndindən istifadə edirlər. Lakin qeyd etmək lazımdır ki, 5-ci maddənin 4-cü bəndində nəzərdə tutulmuş hüququ həmin maddənin 3-cü bəndində yer alan hüquqdan müstəqil olan ayrıca hüquqdur. Şəxs 5-ci maddənin 4-cü bəndi üzrə məhkəmə araşdırmaları haqqında təşəbbüs qaldırdıqda həmin maddənin 3-cü bəndi üzrə məhkəmə araşdırmasını avtomatik olaraq dövlət təmin etməlidir. İşə yenidən baxan məhkəməyə müraciət etmək imkanı həbsə almadan şikayət vermək üçün tutarlı əsasların olub-olmamasından asılı deyil, buna görə də, 5-ci maddənin 4-cü bəndi üzrə şikayət edə bilmək üçün şikayətçinin tutarlı arqumentlər irəli sürməsini dövlət orqanlarının tələb etməsinə yol verilmir. Şəxs azad edildikdən sonra 5-ci maddənin 4-cü bəndi daha tətbiq edilə bilməz. Bundan sonra 5-ci maddə üzrə yeganə hüquqi müdafiə vasitəsi qanunsuz həbsə görə kompensasiyadır.

5-ci maddəsinin 4-cü bəndi qərara yenidən baxan məhkəməyə səlahiyyət vermir ki, qərar qəbul edən səlahiyyətli orqanın mülahizəsini öz mülahizəsi ilə əvəz etsin. Yeganə tələb həbs barədə qərarın qanuniliyinə yenidən baxılmasıdır. 5-ci maddənin 1-ci bəndi üzrə şikayətində uğursuzluğa düçar olan şəxs 5-ci maddənin 4-cü bəndi üzrə şikayətində uğur qazana bilər. Beləliklə, hətta şəxsin həbsi 5-ci maddənin 1-ci bəndi üzrə qanuni olsa belə, o həbsin qanuniliyindən yenidən şikayət vermək hüququndan məhrum edildikdə, 5-ci maddənin 4-cü bəndi pozulmuş olur. 5-ci maddənin 4-cü bəndindəki hüququn əhəmiyyəti ondan ibarətdir ki, şəxs həbsin qanuniliyi məsələsindən şikayət hüququnu həyata keçirmək imkanına malik olmalıdır.

Broqan Birləşmiş Krallığına qarşı işində Avropa Məhkəməsi həbs barədə qərara yenidən baxılması ilə bağlı qeyd etmişdir ki, tutulan və ya həbs edilən şəxslər Konvensiyada nəzərdə tutulan məna baxımından onların azadlıqdan məhrum edilmələrinin qanuniliyi üçün mühüm olan prosessual və maddi hüquqi şərtlərə yenidən baxılması hüququna malikdirlər. Bu o deməkdir ki, səlahiyyətli

məhkəmə həbsin həm dövlətdaxili prosessual tələblərə, həm də 5-ci maddənin tələblərinə uyğunluğunu yoxlamalıdırlar.

Məhkəmə araşdırmasının çəkişmə xarakteri: Məhkəmə prosesləri çəkişmə xarakterli olmalıdır və tərəflərin bərabərliyi həmişə təmin edilməlidir. Məhbus zəruri hallarda prosesdə müdafiəçi ilə təmin olunmaq və dinlənilmək hüququna malikdir. Mürəkkəb hüquqi məsələlər araşdırıldıqda, 5-ci maddənin 4-cü bəndi tələb edir ki, əgər məhbus müdafiəçinin haqqını ödəmək imkanına malik deyilsə, həmin vəsait dövlət hesabına ödənilməlidir. Tərəflərin bərabərliyini təmin etmək üçün məhbusun vəkili həbsin qanuniliyindən səmərəli şəkildə şikayət edə bilmək üçün istintaq materiallarındakı zəruri sənədlərlə tanış olmaq imkanına malik olmalıdır. Başqa sözlə, şəxsin həbsdə saxlanmasını davam etdirmək üçün dövlət orqanlarının əsaslandıqları materialın surəti məhbusa və ya onun vəkilinə verilməlidir.

Həmçinin Avropa Məhkəməsi hesab edir ki, həll edilməli olan məsələnin (onun azadlığı məsələsinin) şikayətçi üçün nə qədər əhəmiyyətli olduğunu nəzərə alaraq, məhkəmələr şikayətçinin şəxsən dinlənilməsini və fərdi vəziyyəti ilə bağlı məlumatlarını və azad edilməsi üçün arqumentlərini məhkəmələrə çatdırmasını təmin etmək üçün tədbirlər görülməlidir.

Sübutetmə vəzifəsi: Həbsin qanuniliyi məsələsindən verilmiş şikayət üzrə prosesdə sübutetmə yükü dövlət orqanlarının üzərinə düşür. Hatçison Reyd Birləşmiş Krallığa qarşı işində ərizəçi ruhi xəstəliklə bağlı olaraq təcrid olunmuşdu. Ərizəçi bir müddət sonra xəstəxanada təcrid olunmasını tələb edən ruhi xəstəlikdən daha əziyyət çəkməməsi ilə bağlı olaraq həbsinin qanuniliyindən məhkəməyə şikayət etmişdir. Avropa Məhkəməsi qeyd etmişdir ki, şəxsin məcburi təcrid halında saxlanmasının zəruriliyini dövlət orqanları sübut etməlidirlər. Həm də ki, şəxsin həbsdə saxlanması və ya həbsinin davam etməsi 5-ci maddənin 1-ci bəndi üzrə yalnız o halda qanuni hesab edilə bilər ki, şəxsin həbsdə saxlanmasını zəruri edən dərəcədə ruhi xəstə olması barədə inandırıcı sübutlarla təqsdiq edilsin. Bu halda da sübutetmə yükü dövlət orqanlarının üzərinə düşür.

Şikayətin tez həll olunması: 5-ci maddənin 4-cü bəndi üzrə həbsdə saxlanmanın qanuniliyi məsələsindən edilən şikayəti tez həlli tələbinin məntiqi əsası bundan ibarətdir ki, əgər həbs həqiqətən qanunsuzdursa, məhbus dərhal azad edilməlidir. Tez həll olunma ifadəsi tələb edir ki, yerli məhkəmələr tərəfindən şikayətin baxılma müddəti mümkün qədər qısa olmalıdır. Avropa Məhkəməsi yenidən qeyd edir ki, tez anlayışının ifadə etdiyi vaxt işin xarakterinə və mürəkkəbliyinə diqqət yetirməklə müəyyən edilməlidir. Burada ağlabatan müddətin hansı müddət olduğunu qiymətləndirərkən nəzərə almaq lazımdır ki,

müddətin axımı prosesin başlandığı vaxtdan başlayır və yekun qərar qəbul edilənə qədər davam edir, hər hansı apelyasiya şikayətinə baxılması müddəti də bura daxildir.

*həbsin qanuniliyin müntəzəm qaydada yoxlanılması*

Zaman keçdikcə, həbsin qanuniliyinə dair yeni məsələlər meydana çıxa bilər və belə hallarda məhbus müntəzəm zaman intervalları arasında həbs qərarına yenidən baxılması hüququna malikdir. Belə hallara misal olaraq : - müalicə məqsədi ilə şəxsin ruhi xəstəxanaya salınaraq təcrid edilməsi, - yetkinlik yaşına çatmayan şəxslərin həbsi.

İbtidai həbslə bağlı hallarda həbsin qanuniliyi ilk dəfə yoxlanıldıqdan sonra şəxs müntəzəm qaydada məhkəməyə müraciət etmək hüququna malikdir. Dövlət şəxsin müraciət etmək hüququnun həyata keçirilməsini təmin etmək öhdəliyi daşıyır.

Belə ki, Betsiçeri İtaliyaya qarşı işində ərizəçi 5-ci maddənin 1(c) bəndinə əsasən həbs edilmişdi. AİHM qərara aldı ki, ilk dəfə milli məhkəmənin qarşısında durduqdan sonra ərizəçi ağlabatan müddət ərzində həbsin qanuniliyinə yenidən baxılması hüququna malikdir.  Bu işdə məhbus 5-ci maddənin 3-cü bəndi üzrə ilk məhkəmə araşdırmasından 1 aydan bir qədər az vaxt keçdikdən sonra həbsin qanuniliyinə 5-ci maddənin 4-cü bəndinə üzrə yenidən baxılmışdı. Hökumət iddia edir ki, bu çox qısa müddətdir. Məhkəmə bununla razılaşmamış və bildirmişdir ki, həbs qətimkan tədbirinin xarakteri həmin tədbirin qısa müddət ərzində davam etməsini nəzərdə tutur, Konvensiyada belə bir ehtimal nəzərdə tutulur ki, həbs qətimkan tədbirinin müddəti ciddi şəkildə məhdudlaşdırılmalıdır, çünki onun zəruriliyi mahiyyət etibari ilə istintaqın tələbləri ilə bağlıdır, istintaq tez bir zaman kəsiyində həyata keçirilməlidir.

**5.5.** ***Konvensiyanın 5-ci maddəsinin müddəalarının pozulması ilə tutulmağa və ya həbsə alınmağa məruz qalan hər kəsin iddia ilə təmin olunan kompensasiya hüququ vardır.***

5-ci maddənin 5-ci bəndi qanunsuz həbsə görə milli səviyyədə məcburi kompensasiya hüququnu təmin edir. Kompensasiya barədə iddia qaldırarkən uğur qazanmaq üçün zərər çəkmiş şəxs 5-ci maddənin digər bəndlərindən hər hansı birinin pozulduğunu sübut etməlidir. Bu hüququ həyata keçirmək üçün həmin şəxs məhkəmədə iddia qaldırmaq imkanına, habelə uğur qazandığı halda məcburi hüquqi qüvvəyə malik qərar çıxarılması hüququna malik olmalıdır.

Kompensasiya almaq üçün şəxs ziyana məruz qaldığını sübut etməlidir. Həmin ziyana aşağıdakıları daxil etmək olar:

-Pul itkisi
-Ağrıya və əzaba düçar olma
-Emosional sarsıntı keçirmə

Avropa Məhkəməsi bildirir ki, sözügedən bənd üzrə kompensasiya adi pul kompensasiyasından daha geniş anlayışdır, lakin o, həmin kompensasiyanın nədən ibarət olduğunu göstərməmişdir. Hər halda, maliyyə kompensasiyasının təyin olunması standart haldır. Kompensasiya təyin etmək öhdəliyi həbsdən azad edilmə haqqında qərar vasitəsi ilə yerinə yetirə bilməz: həmin qərarın qəbulu 5-ci maddənin 4-cü bəndində nəzərdə tutulan ayrıca hüquqdur.

Təyin edilməli olan kompensasiya məbləği barədə qəti prinsiplər yoxdur. Lakin Məhkəmə qeyd etmişdir ki, bu məbləğlər pozuntunun ciddiliyini özündə əks etdirməlidir.

**Nəticə:** Məhkəmə təcrübəsi Avropa Məhkəməsinin müəyyən etdiyi standartlara uyğun şəkildə formalaşdırılmalıdır. O cümlədən, Avropa Konvensiyasının 5-ci maddəsində təsbit edilmiş azadlıq və toxunulmazlıq hüququ həbs qətimkan tədbirinin tətbiq edilməsi ilə məhdudlaşdırıldığı hallarda məhkəmələr tərəfindən Konvensiyanın 5-ci maddəsinin tələbləri və onların tətbiqi üzrə Avropa Məhkəməsin hüquqi mövqeyi nəzərə alınmalı, Avropa Məhkəməsinin öz presedentlərində, xüsusilə də ölkəmizə qarşı qərarlarında müəyyən etdiyi milli məhkəmə praktikası ilə Avropa Şurasının standartları arasında olan fərqlər aradan qaldırılmalıdır.